Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 182 (1550) 4 oktyabr 2017-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# ZAMANA ÇİYİN VERƏN SƏNƏTKAR

**Öncə etiraf etmək lazımdır ki, hər bir söz adamına söz ömrü, yaşamaq, sözün fövqündə durmaq, sözü özü ilə həmahəng etmək nəsib olmur. Çünki bu elə bir missiyadır ki, onu daşımaq, onunla nəfəs almaq, hətta ona nəfəs verməyin özü də böyük zəhmətlə yanaşı, Tanrı dərgahından gələn, Tanrı hədiyyəsi olan istedad da tələb edir. Elə bir zəhmət və elə bir istedad ki, onlar bir-biri ilə qovuşanda həqiqətən insanı, yəni oxucunu tərpədə bilən, düşündürə bilən, öz dairəsinə, ahətəsinə cəlb edə bilən, bir sözlə, oxucunu özününkü, sözünü oxucununku edə bilən bir mükəmməlliyə, bir tamlığa çevrilə bilsin. Bax, bu məqamda söz və sözün sahibi, sənətkar və oxucu bütövlüyü yaranır. Təsadüfi deyil ki, hər söz yazana, hər qələm tutana Sənətkar, Ustad deyilmir. Xoşbəxt o söz sahibi, o qələm sahibidir ki, onun adının qarşısında özünün heç bir təmənnası, istəyi olmadan, ismarıcı olmadan oxucu, xalq, bütövlükdə cəmiyyət ona Ustad deyir, ona Sözün Xiridarı, Sözün Sahibi, Sözün Şahı da deyir.**

Bütün bunlar bizim kəşfimiz və yaxud da söz xatirinə işlətdiyimiz epitetlər deyil. Çünki indi adını xatırladacağımız qələm sahibi bu haqqı öz sözü ilə, öz ustadlığı ilə qazanıb. Yəni bu ad onun üçün elə-belə hansısa bir sinidə hədiyyə edilməyib, gətirilməyib. Böyük zəhmətin, böyük və şirin barını xalq yazıçısı İlyas Əfəndiyev xalqından və dövlətindən alıbdı. Onu buna xalqı və dövləti veribdi. Bu mənada İlyas Əfəndiyevin adı ilə yanaşı, Böyük Yazıçı, Ustad Yazıçı, Böyük Söz Xiridarı və digər titullar bütün hallarda qoşa çəkilmək hüququ qazanıb, möhürlənib bu hüquq onun adının, soyadının yanında...

Bizim nəsil ədəbi mühitdə böyük söz adamlarının, böyük söz sahiblərinin qələmindən dərs ala-ala, öyrənə-öyrənə, oxuya-oxuya auditoriyalardan kənarda, hər kəs öz içində bir məktəb keçib. Bu elə bir məktəb olub ki, bizi öyrədib və biz ondan öyrənməyə özümüz də daxilən bir ehtiyac hiss etmişik. Bu mənada ötən əsrin 50-70-cı illərinin insanları az qala İlyas Əfəndiyevin, Süleyman Rəhimovun, Əli Vəliyevin, Mehdi Hüseynin, Rəsul Rzanın, Səməd Vurğunun, Məmməd Arazın və digərlərinin əsərlərini bir böyük sevgi ilə, böyük maraqla, hətta az qala əlimyandıda axtarıb-arayırdı. Çünki həmin dövrün insanları ədəbiyyatda özünü axtarırdı, özünü tapmağa çalışırdı. Biz ədəbiyyata sığınırdıq, ədəbiyyatdan həyata addım atmaq istəyirdik. Hər birimizin ədəbi qəhrəmanlar silsiləsində ideallarımız var idi. Maraqlı cəhət budur ki, adını xatırlatdığımız və hələ bir çoxlarını da xatırlamaq imkanı olduğumuz Azərbaycan ədəbiyyatının nəhəng simaları məhz oxucu dünyasını görürdü, oxucu tələbatını hiss edirdi, oxucu ilə yaşayırdı. Bəlkə də burada yerinə düşər, deyək ki, Azərbaycan ədəbiyyatının tanınan simaları özlərini yazmaqla yanaşı, həm də oxucu üçün, xalq üçün yazırdılar. Bu sırada İlyas Əfəndiyevin yeri daha əzəmətli, daha diqqətçəkən idi.

İnanmırıq ki, həmin dövrdə kimsə "Söyüdlü arx"ı oxumamış olsun. Bu roman, eləcə də "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan", "Xan çinar", "Körpü salanlar" və digər İlyas Əfəndiyev qələminin bəhrəsi olan ədəbi nümunələr ədəbiyyatda elə-belə sükutla, izsiz-tozsuz gəlib-getməyibdi. Bu əsərlərin hər biri böyük diskussiyaların, fikir mübadilələrinin, o cümlədən də ədəbi tənqidin həmişə diqqət mərkəzində olmaqla bir hadisəyə çevrilibdi. Təsəvvür edin ki, onda daha çox əyalət sayılan kəndlərimizdə bu romanları kitabxanalarda, kitab mağazalarında tapmaq az qala qeyri-mümkün idi. Hətta kənd kitabxanalarında bu romanları oxumaq üçün oxucu növbələrini də xatırlamaq mümkündü. Bilirsiniz bunun səbəbi nə idi? Təbii ki, müəllifin böyük istedadı, böyük söz dünyası və nəhayət, oxucunun dilində, oxucunun görmək istədiyi və yaxud da oxucunun görüb etiraf edə bilmədiklərini onun özünə çatdırmaq, təqdim etmək idi. Məhz İlyas Əfəndiyev qüdrəti oxucu ilə yazıçını birləşdirib onların vəhdətini yaratmış, onları bütövləşdirmişdi.

İlyas Əfəndiyevin "Üçatılan" və "Geriyə baxma, qoca" romanları əyalətlərdə xüsusi bir sevgiyə səbəb olmuşdu. Bu romanların dili, təhkiyəsi, onun yazı manerası o qədər sadə, amma o qədər də orijinal idi ki, adamlar sanki müəlliflə həmsöhbət olurdular. Romanları oxuduqca elə bir təsəvvür yaranırdı ki, müəllif səninlə birlikdə hansısa bir məclisdə, hansısa bir söyüd kölgəsində, hansısa bir yığnaq yerində üz-üzə dayanıb yazdığı əsərin ilk sözünü dilə gətirir və bununla da əsərdə obrazları yaradılmış insanlar özləri başlayır oxucu ilə söhbət etməyə. Aradabir müəllif bir sözlə, bir işarə ilə söhbəti bir az da canlandırır, bir az da şirinləşdirir. Yaddaşa söykənib həmin o romanlardakı elat adamlarını, tərəkəmələri, Haramı düzünü, Araz boyunu göz önünə gətirəndə şəxsən indinin özündə də özümüzü həmin o romanların qəhrəmanları ilə bir yerdə sayırıq. Zənnimizcə, söz adamı üçün bundan böyük uğur, bundan böyük qələbə ola bilməz.

İlyas Əfəndiyevin əsərlərində dövrlə, zamanla barışmamaq, sovet cəmiyyətinin içərisində yaşayıb müxtəlif fikirlərlə, müxtəlif qəhrəmanların dili ilə cəmiyyətə mesaj göndərmək, etiraz səsini ucaltmaq da var. Bir anlıq "Üçatılan" romanındakı məqamların bəzilərini xatırlayaq, təbii ki, yaddaşın gücünə. Əsərin qəhrəmanı Ərşaddan soruşanda bildirir ki, "biz də kolxoz olmuşuq. Amma... Naçannik Veysəl, "nə amma?" deyə soruşur. Olmazdır ki, kolxoz olmayaq? Yox, olmazdı. Niyə axı? Çünki kolxoz istismarı ortadan götürür" - bu xatırlamada əslində quruluşa bir etiraz var, amma bu etirazın ardınca gələn etiraz isə artıq sərt formada quruluşu qamçılamaqdı. Ərşad deyir ki, "Elə indi də naçannik naçannikdi, milisəner, milisəner..."

Buyurun, xatırladağımız və sizə təqdim etdiyimiz bu qısa dialoqda hər şey göz qabağındadı. Cəmiyyətdəki quruluşdan asılı olmayaraq, səlahiyyət, imkan sahibləri həmişə daha yüksək ranqda, yüksək elitarlıqda olublar. Fəhlə, qara camaat öz güzəranını, öz gününü torpaqla, ağır zəhmətlə yola verib. Elə həmin əsərdə Ərşad onu da vurğulayıb ki, "Allah versin ala yaylaqlara". Bəlkə də bu, İlyas Əfəndiyevin uzaqgörənliyinin daha bir məqamıdı. Bu gün elat camaatı tərəkəmə dediklərimiz məhz həmin o yaylaqların nisgilini bizlərdən daha çox çəkir. Çünki həmin o yaylaqlar düşmən tapdağı altındadır.

**Eləcə də "Geriyə baxma, qoca" romanında bir müəllif obrazı da bütün əsər boyu oxucuyla yol yoldaşlığı edir. İlyas Əfəndiyev özü oxucusunun əlindən tutub bir nəslin, bir səcərənin keçdiyi yolu addım-addım, qarış-qarış keçib gəlir və romanın hər yarımbaşlığında bir yeni səhnə açılır, bir yeni dünyadan xəbər verilir. Yenə bu da qələmin qüdrətdir, yenə bu da İlyas Əfəndiyev yaradıcılığının böyük imkanlarının bariz nümunəsidi.**

**(ardı növbəti sayımızda)**

***Əbülfət MƏDƏTOĞLU***





AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ